## *Fəsil XII. Aksizlər*

### Maddə 182. Aksiz anlayışı

182.1. Aksiz - aksizli malların satış qiymətinə daxil edilən vergidir.
182.2. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan, vergidən azad edilən mallar istisna olunmaqla, aksiz tutulur.

### Maddə 183. Vergi ödəyiciləri

183.1. Bu fəsildə başqa hallar nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikası ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli malları istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri aksizin ödəyiciləridirlər.
183.2. Sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal edildiyi hallarda, malların istehsalçısı (podratçı) aksizin ödəyicisidir. Bu halda istehsalçı (podratçı) aksiz məbləğlərini sifarişçidən almalıdır.
183.3. Aksizli malların istehsalçısı və sifarişçisi qarşılıqlı surətdə asılı olan rezident şəxslər olduqda, malın sahibi (sifarişçi) aksizin ödəyicisidir.[927]

### Maddə 184. Vergitutma obyekti

184.1. Aşağıdakı əməliyyatlar vergitutma obyektləridir:
184.1.1. Azərbaycan Respublikasının ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması;
184.1.2. idxal malları üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması.
184.2. Bu maddənin məqsədləri üçün istehsal binalarına istehsalın olduğu ərazidə yerləşən anbarlar, köməkçi anbar sahələri və digər oxşar binalar aiddir.

### Maddə 185. Vergi tutulan əməliyyatın məbləği

185.1. Azərbaycan Respublikası ərazisində istehsal olunan neft məhsulları ~~və tütün məmulatları~~ üçün vergi tutulan əməliyyatın məbləği vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən, o cümlədən barter əsasında, aldığı və

ya almalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz, *yol vergisi* və ƏDV çıxılmaqla) aşağı olmayan məbləğidir. Azərbaycan Respublikası ərazisində istehsal olunan digər aksizli mallar üçün vergi tutulan əməliyyat istehsal olunan malların miqdarı hesab olunur.[928]

185.2. İdxal malları üçün (*avtobuslar,* minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr, *habelə platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz* istisna olmaqla) vergi tutulan əməliyyatın məbləği Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz, *yol vergisi* və ƏDV çıxılmaqla).[929]

İdxal olunan *avtobuslar,* minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə vergi tutulan əməliyyat – onların mühərrikinin həcmidir.[930]

*İdxal olunan platinə görə vergi tutulan əməliyyat platinin hər qramı, qızıla, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına görə - qızılın min çəki vahidindəki miqdarı, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza görə - almazın karatıdır.*[931]

185.3. *Çıxarılmışdır.*[932]

**Maddə 186. Vergi tutulan əməliyyatın vaxtı**

186.1. Azərbaycan Respublikası ərazisində istehsal olunan mallar üçün - malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.

186.2. Malların idxalı üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.

***Maddə 186-1. Aksiz hesablanan dövriyyənin dəqiqləşdirilməsi***[933]

*186-1.1. Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara buraxılmasına görə vergi hesablanmışdırsa, həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi və ya digər səbəblərdən geri qaytarılması zamanı hesablanmış aksiz malların qaytarıldığı hesabat dövründə azaldılır.*

*186-1.2. Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara özünə məxsus obyektlərə buraxılmasından sonra həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi səbəbindən geri qaytarılması zamanı vergi ödəyicisi həmin malların aktlaşdırılması və hesablanmış verginin azaldılması üçün vergi orqanına*

*müraciət edir. Müraciət edilmə tarixindən 5 iş günü müddətində vergi orqanının məsul şəxslərinin iştirakı ilə həmin mallar aktlaşdırılır.*
*186-1.3. Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullara görə aksizin azaldılması müvafiq aktın tərtib edildiyi hesabat dövründə həyata keçirilir və vergi hesabatı təqdim edilərkən tərtib edilən akt vergi orqanına təqdim edilir. Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullar məhv edildikdə, həmin məhsulların istehsalı zamanı əvəzləşdirilmişaksizin büdcəyə hesablanması həyata keçirilir.*

**Maddə 187. İxracın vergiyə cəlb edilməsi**

Aksizli malların ixracı sıfır dərəcəsi ilə vergiyə cəlb olunur.

**Maddə 188. Azadolmalar**

188.1. Aşağıdakılar aksizdən azad edilir:

188.1.1. fiziki şəxsin fərdi istehlakı üçün *1,5* litr alkoqollu içkinin, 200 *ədəd siqaretin, 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almazın* idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq;[934]

188.1.2. Azərbaycan Respublikası ərazisindən tranzitlə daşınan mallar;

188.1.3. *Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 192-ci və 194-cü maddələrində nəzərdə tutulmuş hallarda* malların Azərbaycan Respublikası ərazisinə müvəqqəti idxalı;[935]

~~188.1.4. təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən mallar.~~[936]

*188.1.5. Azərbaycan Respublikası Mərkəzi Bankının aktivlərində yerləşdirilmək üçün idxal olunan platin, qızıl və emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz, Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirilmək üçün idxal olunan qızıl;*[937]

~~*188.1.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar idxal edilən mallar;*~~[938]

*188.1.7. bu Məcəllənin 188.1.1-ci maddəsinin müddəaları nəzərə alınmaqla, idxal olunan platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məmulatlar, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz - 2021-ci il yanvarın 1-dən 3 il müddətinə.*[939]

188.2. Bu Məcəllənin 188.1-ci maddəsində göstərilən aksizdən azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olsun. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal, rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq olunur.

**Maddə 189. İstehsal ehtiyacları üçün aksizlərin əvəzləşdirilməsi**

189.1. Aksizli malları (xammal və materialları) alan və bu malları vergi tutulan digər aksizli malların istehsalı üçün istifadə edən şəxs xammal və materialları alarkən ödənilmiş aksizin məbləğini əvəzləşdirmək və ya geri almaq hüququna malikdir.
189.2. Bu maddəyə uyğun olaraq aksizin məbləği yalnız xammal və materialların istehsalçısı tərəfindən aksizin ödənildiyini təsdiq edən elektron *qaimə-faktura*, xammal və materiallar idxal edildikdə isə - müvafiq sənədlər vergi orqanına verildiyi zaman əvəzləşdirilir və ya geri qaytarılır. Sənədlər vergi orqanına verildikdən sonra 45 gün ərzində tutulmuş aksiz məbləği vergi ödəyicisinə qaytarılır. [940]

**Maddə 190. Aksizli malların siyahısı və vergi dərəcələri**

190.1. Aşağıdakı mallar aksizli mallara aid edilir:
- içməli spirt, ~~maya,~~ pivə və spirtli içkilərin bütün növləri;
- tütün məmulatları;
- neft məhsulları; [941]
- minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);
- istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr; [942]
- *idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;* [943]
- *idxal olunan xəz-dəri məmulatları;* [944]
- *energetik ~~(alkoqolsuz və ya alkoqollu)~~ içkilər;* [945]
- *avtobuslar (sıxılmış qazla işləyən avtobuslar istisna olmaqla);*
- *elektron siqaretlər üçün maye;*
– *istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri;* [946]
– *qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları;* [947]

*– birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri.*

190.2. Azərbaycan Respublikasına idxal edilən aksizli mallara (*avtobuslar,* minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr, *habelə platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz, xəz-dəri məmulatları* istisna olmaqla) aksizlərin dərəcələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[948]

190.3. Azərbaycan Respublikasında istehsal olunan içməli spirtə, pivəyə, spirtli içkilərə, *tütün məmulatlarına, energetik içkilərə, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlərə, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlərə, çeynənilən və ya buruna çəkilən tütünlərə, və tütün əvəzləyiciləri, habelə qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarına, birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzedicilərinə və elektron siqaretlər üçün mayeyə* aşağıdakı aksiz dərəcələri tətbiq edilir:[949]

190.3.1. içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti) hər litrinə - 4,*0* manat;[950]

190.3.2. araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları - hər litrinə 4,*0* manat;[951]

190.3.3. konyak və konyak materialları - hər litrinə 4,*0* manat;[952]

190.3.4. şampan şərabı - hər litrinə *2,6* manat;[953]

190.3.5. şərablar və şərab materialları - hər litrinə *0,2* manat;[954]

190.3.6. pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli - digər içkilər hər litrinə *0,4* manat;[955]

*190.3.7. ~~siqarlar, ucları kəsilən siqarlar və~~ siqarilla (nazik siqarlar) - 1000 ədədinə 43,0 manat;*[956]

*190.3.8. tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri - 1000 ədədinə 38,5 manat;*[957]

*~~190.3.9. alkoqollu energetik içkilər – hər litrinə 2,0 manat;~~*[958]

*190.3.10. ~~alkoqolsuz~~ energetik içkilər – hər litrinə 3,1 manat;*[959]

*190.3.11. siqarlar, o cümlədən ucları kəsilən siqarlar – hər bir ədədinə 1,0 manat;*

*190.3.12. elektron siqaretlər üçün maye – hər litrinə 100,0 manat;*[960]

*190.3.13. bu maddədə nəzərdə tutulmayan tündləşdirilməmiş alkoqollu içkilər (tərkibindəki spirtin miqdarı 9 faizdən çox olmayan) – hər litrinə 0,4 manat;*[961]

*190.3.14. qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər - hər kiloqramına 30,0 manat;*[962]

*190.3.15. qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları – 1000 ədədinə 14,0 manat;*[963]

*190.3.16. birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri - hər bir ədədinə 0,25 manat.*

*190.3-1. Bu Məcəllənin 190.3.1-ci – 190.3.8-ci, 190.3.10-cu, 190.3.12-ci – 190.3.15-ci maddələrində qeyd olunan mallara görə aksizin məbləği aksiz dərəcəsi ilə həmin malların faktiki həcminin (miqdarının) hasilinə tətbiq edilməklə hesablanır.*[964]

*190.4. Azərbaycan Respublikasına idxal olunan avtobuslara, minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə, habelə idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza, xəz-dəri məmulatlarına aşağıdakı aksiz dərəcələri tətbiq edilir:*[965]

*190.4.1. minik avtomobillərinə (bu Məcəllənin 190.4.1-3-cü maddəsinin müddəaları nəzərə alınmaqla), istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə:*[966]

| ***Vergitutma obyektinin adı*** | ***Aksizin dərəcəsi*** |
|---|---|
| *Minik avtomobilləri:* | |
| *- mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda* | *Mühərrikin həcminin hər kubsantimetrinə görə – 0, 30 manat*[967] |
| *- mühərrikin həcmi 3000 kubsantimetrədək olduqda* | *600 manat + mühərrikin həcminin 2001- 3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 5 manat* |
| *- mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda* | *5600 manat + mühərrikin həcminin 3001- 4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 13 manat* |
| *- mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda* | *18600 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 35 manat* |
| *- mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda* | *53600 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə – 70 manat* |
| *İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr* | *Mühərrikin həcminin hər kubsantimetrinə görə – 6 manat* |

*190.4.1-1. Avtobuslara görə:*[968]

| ***Vergitutma obyektinin adı*** | ***Aksizin dərəcəsi*** |
|---|---|
| *Avtobuslar:* | |

| | |
|---|---|
| *– mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda* | *Mühərrikin həcminin hər kubsantimetrinə görə – 2 manat* |
| *– mühərrikin həcmi 6000 kubsantimetrədək olduqda* | *8000 manat + mühərrikin həcminin 4001 – 6000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 4 manat* |
| *– mühərrikin həcmi 8000 kubsantimetrədək olduqda* | *16000 manat + mühərrikin həcminin 6001 – 8000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 6 manat* |
| *– mühərrikin həcmi 10000 kubsantimetrədək olduqda* | *28000 manat + mühərrikin həcminin 8001 – 10000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 8 manat* |
| *– mühərrikin həcmi 10000 kubsantimetrdən çox olduqda* | *44000 manat + mühərrikin həcminin 10000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə – 10 manat* |

*190.4.1-2. Azərbaycan Respublikasına idxal olunan avtobusların istehsal tarixi 1 ildən artıq və ya qət etdiyi məsafə 100000 kilometrdən artıq olduqda, aksiz bu Məcəllənin 190.4.1-1-ci maddəsinə əsasən hesablanmış məbləğə 1,5 əmsal tətbiq edilməklə hesablanır;*

*190.4.1-3. mühərrikin həcmi 3000 kubsantimetrdən çox və istehsal tarixi 3 ildən artıq olan minik avtomobillərinə görə:* [969]

| *Vergitutma obyektinin adı* | *Aksizin dərəcəsi* |
|---|---|
| *- mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda* | *5600 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 15 manat* |
| *- mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda* | *20600 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 40 manat* |
| *- mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda* | *60600 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə - 80 manat* |

*190.4.1-4. Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinin istehsal tarixi 7 ildən artıq olduqda, aksiz bu Məcəllənin 190.4.1-ci və 190.4.1-3-cü maddələrinə əsasən hesablanmış məbləğə benzin mühərrikli minik avtomobillərinə 1,2, dizel mühərrikli minik avtomobillərinə isə 1,5 yüksəldici əmsal tətbiq edilməklə hesablanır;*

*190.4.2. idxal olunan platinin hər qramına görə - 4,0 manat;* [970]

*190.4.3. idxal olunan qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min çəki vahidindəki miqdarına görə:*

*190.4.3.1. qızılın min çəki vahidindəki miqdarı 375 (üç yüz yetmiş beş) olduqda, hər qramına görə - 1,5 manat;* [971]

*190.4.3.2. qızılın min çəki vahidindəki miqdarı 500 (beş yüz) olduqda, hər qramına görə - 2,0 manat;*

*190.4.3.3. qızılın min çəki vahidindəki miqdarı 585 (beş yüz səksən beş) olduqda, hər qramına görə - 2,4 manat;*

*190.4.3.4. qızılın min çəki vahidindəki miqdarı 750 (yeddi yüz əlli) olduqda, hər qramına görə - 3,0 manat;*

*190.4.3.5. qızılın min çəki vahidindəki miqdarı 958 (doqquz yüz əlli səkkiz) olduqda, hər qramına görə - 5,0 manat;*

*190.4.3.6. qızılın min çəki vahidindəki miqdarı 999 (doqquz yüz doxsan doqquz) olduqda, hər qramına görə - 6,0 manat;*

*190.4.4. idxal olunan emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün 400 manat (aksiz dərəcəsi) olmaqla, aşağıdakı qaydada hesablanır:* [972]

*190.4.4.1. almazın bir ədədinin miqdarı 1 karatdan aşağı olduqda, aksiz dərəcəsi almazın faktiki miqdarına mütənasib olaraq azaldılır;*

*190.4.4.2. almazın bir ədədinin miqdarı 1 karatdan yuxarı olduqda, aksizin məbləği aksiz dərəcəsi ilə almazın faktiki miqdarının hasilinə aşağıdakı əmsallar tətbiq edilməklə hesablanır:*

*190.4.4.2.1. 1 karatdan 2 karatadək olduqda - 2,0;*

*190.4.4.2.2. 2 karatdan 3 karatadək olduqda - 3,0;*

*190.4.4.2.3. 3 karatdan 4 karatadək olduqda - 4,0;*

*190.4.4.2.4. 4 karatdan 5 karatadək olduqda - 5,0;*

*190.4.4.2.5. 5 karatdan yuxarı olduqda - 10,0.*

*190.4.5. idxal olunan xəz-dəri məmulatlarının topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinin 10 faizi.* [973]

190.5. Azərbaycan Respublikasında istehsal olunan neft məhsullarına, minik avtomobillərinə və istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr aksiz dərəcələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. [974]

**Maddə 191. Aksizlər üzrə hesabat dövrü və aksizlərin ödənilməsi**

191.1. Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə, hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməlidir.

191.2. Vergi ödəyicisinin aksizin ödənişi üzrə borcu varsa, həmin borc yaranandan ödənilənədək həyata keçirilən vergi tutulan əməliyyatlar üzrə aksizlər bu Məcəllənin 191.1-ci maddəsinin tələblərinə baxmayaraq həmin əməliyyatların aparıldığı vaxt ödənilir və vergi ödəyicisinin həmin malları bu mallar üzrə aksizi ödəyənədək istehsal binasının hüdudlarından kənara çıxartmağa hüququ yoxdur.

191.3. Aksizli mallar idxal edildikdə, aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.
191.4. Aksizlər dövlət büdcəsinə ödənilir.
*191.5. Bu Məcəllə ilə müəyyən edilən aksizli mallara tətbiq edilən aksiz dərəcələrinin "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hissəsi icbari tibbi sığorta fonduna ödənilir.* [975]

**Maddə 192. Bəyannamənin verilməsi**

192.1. Vergi ödəyicisi bu Məcəllənin 191.1-ci maddəsində göstərilən hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada verginin ödənilməsi üçün nəzərdə tutulmuş müddətlərdə, hesabat dövrü ərzində vergi tutulan əməliyyatlarını göstərməklə bəyannamə verməlidir.
Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, aksiz bəyannaməsi bu Məcəllədə nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir. [976]
192.2. Aksizin ödəyicisi bu Məcəllənin 189-cu maddəsində göstərilən əvəzləşdirmə üçün ərizəni aksizin ödənilməsinə dair bəyannamə ilə birlikdə vergi orqanına verir.

**Maddə 193. Təkrar ixrac zamanı aksizin qaytarılması**

193.1. Sonradan təkrar ixrac məqsədi ilə idxal olunan mallar üçün aksiz, malların idxalı vaxtı ödənilir və sonradan təkrar ixracın faktiki həcminə müvafiq məbləğdə aksizi almış gömrük orqanları tərəfindən 15 gün ərzində geri qaytarılır.
~~193.2. Bu Məcəllənin 188.1.4-cü maddəsinə uyğun olaraq aksizlərdən azad edilən idxal mallarına bu Məcəllənin 193.1-ci maddəsi tətbiq edilmir.~~ [977]

**Maddə 194. Aksizli mallar üzərində vergi nəzarəti**

194.1. *Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı malların siyahısı, həmin mallara aksiz markalarının tətbiqi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Aksiz markalarının hazırlanmasına dair sifarişin verilməsi, onların satışı və uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir və həmin markaların hazırlanmasına dair sifarişin verilməsi, onların satışı və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti*

*orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.* Belə aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq qadağandır və qanunvericilikdə müəyyən edilmiş məsuliyyətə səbəb olur. ~~Dövlət nəfinə alınmış aksiz markası olmayan aksizli malların satışı bu Məcəllədə müəyyən edilmiş qaydada həyata keçirilir.~~ [978]

*194.1-1. Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və həmin qaydaların tələblərini pozan şəxs Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyır.* [979]

*194.1-2. Aksiz markasının verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.* [980]

194.2. Vergi orqanları markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyiciləri tərəfindən bu Məcəllədə müəyyən edilmiş tələblərin pozulması hallarını müəyyən etdikdə, vergi ödəyicilərinin müvafiq binalarında və ya anbarlarında (şəxsi istehlak üçün anbarlar istisna olmaqla) nəzarət postları, ölçü cihazları, plomblar qurmaqla və digər tədbirləri görməklə aksizli malların uçota alınmadan, markalanmadan *elektron qaimə-faktura təqdim edilmədən* və bu Məcəllənin 191.2-ci maddəsində nəzərdə tutulan hallarda və müəyyən edilmiş prosedura uyğun olaraq aksizləri ödəmədən istehsal binasının hüdudlarından kənara çıxarılmasının qarşısının alınmasını təmin etməyə səlahiyyətlidir. [981]

194.2.1. Nəzarət postları müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən telefon və digər zəruri avadanlıqla təchiz edilməklə markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyicilərinin istehsal sahələrinin əsas giriş və çıxış qapısının yaxınlığında yaradılır.

194.2.2. Nəzarət postları yaradıldıqda markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyicilərinin texnoloji avadanlıqlarının, ölçü vasitələrinin və laboratoriya cihazlarının texniki sazlığının, standartlara uyğunluğunun yoxlanılması və həmin cihazların plomblanması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

194.2.3. Nəzarət postlarının işçiləri aksiz markalarının qalıqlarını inventarizasiya etməklə, istehsal həcmi üzrə nəzarət-ölçü cihazlarını, xammal, material və hazır məhsul anbarlarını, istehsal sahələrindəki texnoloji avadanlıqları plomblamaqla, eləcə də hazır məhsul satılarkən malların ilkin təsdiqedici sənədlərinə (qaiməsinə, *elektron qaimə-fakturasına,* mal-nəqliyyat qaiməsinə~~, elektron vergi hesab-fakturasına~~ və s.) baxış keçirməklə markalanmalı olan malların markalanmaqla istehsal sahələrindən kənara çıxarılmasına, hazır məhsulun anbara və oradan alıcılara buraxılmasına, markalarının yapışdırılması qaydalarına riayət olunmasına nəzarət edirlər. [982]

194.2.4. İstehsal həcmi üzrə nəzarət-ölçü cihazlarının, xammal, material və hazır məhsul anbarlarının, istehsal sahələrindəki texnoloji avadanlıqların plomblanması nəzarət postlarının işçiləri tərəfindən istehsalçının nümayəndəsi ilə birlikdə vergi orqanının təsdiq etdiyi forma üzrə kitabda müvafiq qeydlər, o cümlədən istehsal həcmi üzrə nəzarət-ölçü cihazlarının göstəriciləri barədə qeydlər aparmaqla, iş gününün sonunda, növbələrarası həmçinin lisenziyaların qüvvədə olma müddətinin dayandırılması və ya onların ləğv edilməsi, hazır məhsulun maskalanması üçün aksiz markalarının, istehsal üçün xammalın, yardımçı və qablaşdırıcı materialların olmaması, habelə texniki səbəblərdən avadanlığın daha uzun müddət dayanması zamanı həyata keçirilir.

194.2.5. Avadanlığın dayandırılması zamanı istehsal güclərinin qapanması istehsal üzrə texnoloji xətlərin və avadanlığın elə yerlərdə plomblanması vasitəsilə həyata keçirilməlidir ki, onlardan istifadə edilməsi mümkün olmasın.

194.2.6. Plombların vurulması və çıxarılması nəzarət postunun işçiləri və istehsalçının nümayəndəsinin iştirakı ilə müvafiq aktla rəsmiləşdirilməlidir.

194.2.7. Nəzarət postlarının işçiləri iş başladığı vaxtda nəzarət postlarında olmadıqda istehsalçının məsul şəxsləri tərəfindən vergi orqanına məlumat verilməklə, səbəbi və vaxtı göstərilməklə müvafiq akt tərtib edilərək plomblar açıla bilər.

194.2.8. Nəzarət postlarının işçiləri satışa buraxılan hazır məhsulların sənədlərində göstərilən sayının, həcminin, çəkisinin onların faktiki sayı, həcmi və çəkisi ilə düzgünlüyünü yoxlamalı və sənədlərdəki göstəriciləri xüsusi jurnalda qeyd etməlidirlər. Bundan sonra nəzarət postlarının işçiləri malların ilkin təsdiqedici sənədlərində (qaimə, *elektron qaimə-faktura,* mal-nəqliyyat qaiməsi~~, elektron vergi hesab-faktura~~ və s.) "buraxılışa icazə verilir" qeydini aparmalıdırlar. [983]

194.2.9. Plombların vurulması və çıxarılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklər edildikdə, texnoloji avadanlıqlardakı plomblar zədələndikdə, istehsal olunmuş məhsulların aksiz markası ilə markalanmasında, tam uçota alınmasında, aksiz markalarının inventarizasiyasında kənarlaşma aşkar edildikdə, eləcədə bu Məcəllənin 191.2-ci maddəsinin tələblərini pozmaqla hazır məhsulun istehsal sahəsindən kənara çıxarılması müəyyən edildikdə nəzarət postunun işçiləri müvafiq akt tərtib etməli, bu barədə dərhal vergi orqanına məlumat verməlidirlər.

194.3. *Çıxarılmışdır.* [984]